ADB News Release
AZERBAIJAN RESIDENT MISSION, ASIAN DEVELOPMENT BANK

96 Nizami Street, 4th Floor
Landmark Building
Baku AZ1000, Azerbaijan
Tel + 994 12 496 58 00

# AZƏRBAYCAN AİB-nin TİCARƏTİN MALİYYƏLƏŞMƏSİNƏ YARDIM PROQRAMINA QOŞULDU

Bakı, Azərbaycan (25 May 2006) – Asiya İnkişaf Bankı (AİB) bugün iki yerli bank– AzəriGazBank ve Respublika Bankın hər biri ilə 4 milyon ABŞ dolları məbləğində ticari əməliyyatların maliyyələşməsinə yardım müqaviləsi imzalamışdır. Bu anlaşmalar yerli bankların Azərbaycanda olan idxalatçı və ixracatçıların əməliyyatlarını maliyyələşdirmək bacarıqlarını gücləndirəcəkdir.

AzəriGazBank və Respublika Bank 2004-cü ilin may ayında başlamış Ticarətın Maliyyələşməsinə Maliyyə Dəstəyi (TMMY) proqramı çərçivəsində AİB-nın müqavilə imzaladıgı ilk özəl Azərbaycan banklarıdırlar. Bu proqram vasitəsilə, AİB ödəyici bankların qorunmamış kommersiya risklərini və bankların yerləşdikləri müvafiq ölkələrdəki siyasi riskləri qismən kredit təminatı və yenilənən kredit imkanları ilə öz üzərinə götürür.

AİB-nin Azərbaycandakı Ölkə üzrə İqtisadçısı Filip Çanqın sözlərinə görə: «Bu imkanlar idxalatçı və ixracatçıların ticari əməliyyatları maliyyələşdirmək üçün etibarlı və ucuz maliyyə vəsaitləri tapmaq imkanlarını asanlaşdıracaq, eyni zamanda Azərbaycanda qeyri-neft sektorunda ticarətin və özəl sahənin inkişafına təkan verəcəkdir».

«AİB özəl sektor departamenti vasitəsilə maliyyə vasitəçiliyi və ticarətin maliyyələməsini inkişaf etdirməklə bank sistemini dəstəkləməyə və beləliklə biznes qurumlarının və yatırımların maliyyə vəsaiti tapmaq imkanlarını genişlətməyə davam edəcəkdir».

AİB-nin 12 inkişaf-etməkdə olan üzv ölkəsində bu vaxtadək 21 yerli banka TMMY proqramı çərçivəsində yardım olunmuşdur.

AİB-nin Azərbaycanda həyata keçirdiyi layihə və proqramlar haqda məlumat almaq üçün http://www.adb.org/azrm saytına baxa bilərsiniz.

*****

Manilada yerləşən AİB Mərkəzi Asiya və Sakit okean ölkələrində əhalinin yoxsul təbəqələrinin maraqlarına yönələn sabit iqtisadi yüksəliş, sosial inkişaf və zəruri idarəetmə vasitələri ilə yoxsulluğun azaldılmasına yönəldilmişdir. 1966- cı ildə yaradılmış bu təşkilat 47-si bu regiondan olan 65 üzvdən ibarətdir. 2005-ci ildə AİB 6.95 milyard dəyərində kredit və qrant layihələrini və 198.8 milyon dəyərində texniki yardım təsdiq etmişdir.